İndoneziya respublikasının səfirliyi, İndoneziya respublikası Xarici İşlər Nazirliyinin "2018-ci il İndoneziya İncəsənəti və Mədəniyyəti Təqaüdü" (İİMT) proqramının Azərbaycan da daxil olmaqla 55 (əlli beş) ölkədən namizədlər üçün açıq elan olunduğunu bildirməkdən şərəf duyduğunu bildirir.

Ümumən 3 (üç) ay davam edəcək təqaüd proqramına 2018-ci il aprel ayında start veriləcək. İştirakçılar təşkilatçı tərəfindən təyin olunaraq Şərqi Yava (Surabaya), Bali (Badunq), Qərbi Sumatra (Padanq), Cənubi Sulavesi (Makassar), Şərqi Kalimantan (Samarinda) və Yogyakarta olmaqla, ümumilikdə 6 (altı) incəsənət mərkəzləri kimi tanınan bölgələrdə yerləşdiriləcəkdir. İştirakçılar təlimatlandırılaraq yerli mədəniyyətə və mədəni irs nümunələrinə, o cümlədən rəqs dərnəkləri, qamelan (ənənəvi müsiqi alətləri), batik, rəssamlıq, turizm, muzeylər, ənənəvi ərzaq və digər sahələrə təqdim olunacaqlar. Təqaüd proqramının sonunda bütün iştirakçılar Qərbi Sumatra (Padanq) əyalətində baş tutacaq tədbirdə "İndoneziya yerli televiziya kalanlı" ilə öyrəndikləri bilikləri münayiş etdirəcəklər.

İndoneziya İncəsənəti və Mədəniyyəti Təqaüdü proqramı (İİMT) 17 mart – 24 iyun 2018-ci il tarixlərində aşağıdakı ardıcıllıqla həyata keçirilməsi nəzərdə tutulur.

| No. | Tədbir | Vaxt | Məkan |
|---|---|---|---|
| 1 | İştirakçılarınİndoneziyaya gəlibçatması | 17-18 Mart 2018-cil il | DKI Jakarta |
| 2 | İştirakçıların istiqamətləndirilməsi həftəsi | 19-25 Mart 2018-ci il | DKI CakartavəQərbiYava |
| 3 | Xarici İşlər Naziri tərəfindən İİMT proqamın açıq elan edilməsi mərasimi | 23 Mart 2018-ci il (*təsdiqolunmalıdır*) | Pancasilaİnzibatibinası, XariciİşlərNazirliyi, DKI Cakarta |
| 4 | Təhsilvətədris | 26 Mart-17 iyun 2018-cil | Şərqi Yava, Bali, Qərbi Sumatra, Cənubi Sulavesi, Şərqi Kalimantan, Yogyakarta |
| 5 | İİMT proqramınbağlanışmərasimivəçıxışlar "*İndoneziyayerlitelevizíyakanalı* (Inchan)" | 21 iyun 2018-cil il | Padang, Qərbi Sumatra vəya DKI Cakarta |

| | | | |
|---|---|---|---|
| | "*İndoneziyayerliteleviziyakanalı* (Inchan)" çıxışüçünhazırlıqvəatəşfəşanlıq | 18-22 iyun 2018-ci il | |
| 6 | İştirakçıların ölkələrinəgeriqayıtması | 23-24 iyun 2018-ci il | DKI Cakarta |

İndoneziya Hökuməti qənaətcil sinif beynəyxalq uçuşlar üçün gediş-gəliş təyyarə bileti, təhsil müəssisəsinə çatmaq üçün yerli gediş-gəliş təyyarə bileti, İndoneziyada olduğu müddət ərzində (proqram müddəti ərzində) qalmaq xərcləri, təhsil haqqı xərcləri, aylıq təqaüd, o cümlədən standart/məhdud sağlamlıq sığortası xərclərini qarşılayır.

Proqramda iştirak etmək üçün şərt və tələblər aşağıdakı kimidir:

- 21-27 yaş arası
- Motivasiya məktubu
- 3 (üç) ədəd ədəd pasprt üçün fotoşəkil
- Etibarlıq müddətinin bitməsinə ən azı 2 (iki) il qalmış paspotun surəti
- Akademik təhsilin diplomun surəti
- Qeydiyyatdan keçmiş səhiyyə müəssisəsindən təqdim olunmuş sağlamlıq haqqında arayışın surəti. İştirakçılar ölkələrini tərk edərkən qeydiyyatdan keçmiş səhiyyə müəssisəsindən sağlamlıq haqqında arayışları özləri ilə götürməlidirlər.
- Tövsiyə məktubu
- Tərcümeyi hal

Təqaüd haqqında məlumat vərəqəsi, Ərizə forması və 2018-il İİMT proqramı konsepsiyası müraciətə əlavə edilmişdir. Ərizə forması və digər zəruri sənədlərin toplusu **29 dekabr 2017-ci** il tarixindən gec olmayaraq aşağıda qeyd olunmuş ünvana çatdırılmalıdır:

**İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi**
Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi 2/180, Bakı, Az 1078
Əlaqə nömrəsi: 012-5269169